# Şairin adına layiq



**Tədbirə bir gün də əvvəl gəlmişdim. Fikrim rayonu dolaşmaq, son vaxtlar Qazaxda aparılan quruculuq işləri, həyata keçirilən mədəni yeniliklərlə tanış olmaq idi.**

Molla Vəli Vidadi - 300

Bəri başdan deyim ki, istəyimə nail oldum. Nəinki Qazaxı, həm də Ağstafanı gəzməyə, buradakı göz oxşayan, könül sevindirən dəyişiklikləri izləməyə imkan tapdım. Ağstafada Gülgün müəllimin rəhbərliyi altında həmişə çox iş görüldüyündən bu mənzərəni görməyə adət etmişdim. Qazaxda isə ilk dəfə idi ki, bu qədər dəyişikliyin şahidi olurdum.

Bu haqda sonrakı söhbətlərimizdə bəhs edəcəyik. İndi isə böyük Azərbaycan şairi Molla Vəli Vidadinin 300 illik yubileyi ilə bağlı möhtəşəm tədbir barədə.

Əvvəlcə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynov, rayonun digər rəhbər rəsmiləri, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Vaqif Bəhmənli, incəsənət şöbəsi teatr sektorunun baş məsləhətçisi Vəfa Novruzova, şair və yazıçılar, mətbuat nümayəndələri və ziyalılar "Abidələr bağı"nı ziyarət etdilər, M.P.Vaqif və M.V.Vidadinin qoşa abidəsi önünə tər çiçək dəstələri qoydular.

Rayon Mədəniyyət evində keçirilən tədbiri RİH başçısı Rauf Hüseynov açdı. O, salona toplaşanları salamladı, görkəmli Azərbaycan şairi M.V.Vidadinin həyat və yaradıcılığı haqqında danışdı.

Nümayəndə heyətinin rəhbəri Vaqif Bəhmənli Mədəniyyət və Turizm Nazirliyinin son vaxtlar həyata keçirdiyi çoxsaylı tədbirlərdən, möhtəşəm layihələrdən söhbət açdı, yubileyə qatılanlara nazir Əbülfəs Qarayevin salamlarını çatdırdı.

Tanınmış rejissor, xalq artisti Vaqif Əsədovun quruluşunda özündə iki dostun görüş səhnəsini əks etdirən tamaşa çox təsirli alındı. Xalq artistləri Rafiq Əzimov (Vidadi) və İlham Əsgərov (Vaqif) rollarını həmişə olduğu kimi, yenə də məharətlə ifa etdilər.

İstər xalq artistləri Teyyub Aslanov, Kamil Vəzirov, İsmayıl Həmidov, istər əməkdar artistlər Əli Nur, Gülyanaq Məmmədova, Bilal Əliyev və Gülüstan Əliyeva, istərsə də Aşıq Camoy, Aşıq Sadıq, Aşıq Hacı, şairlər Musa Ələkbərli, Ədalət Əsgəroğlu, Barat Vüsal və İbrahim İlyasoğlunun ifa və çıxışları da maraqla qarşılandı...

Bütövlükdə yubiley tədbiri yüksək səviyyədə, şairin adına layiq qeyd olundu...

* * *

Molla Vəli Vidadi təxminən 1709-cu ildə Şəmkirdə anadan olmuşdur. Əvvəl Şəmkirdə, sonra isə Qazaxın Poylu (hazırda bu kənd Ağstafanın tabeliyindədir) kəndində təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Şıxlı kəndində mirzəlik və məktəbdarlıq etmişdir.

Vidadi həm əruz, həm də heca vəznlərində yazmışdır. Ədəbi irsinin az qismi məlumdur. Feodal zülmündən, xanlıqlar dövrünün hərc-mərcliyindən doğan kədər və ümidsizlik, mənəvi tənhalıqdan şikayət Vidadi yaradıcılığının əsas motivlərindəndir.

Şəki xanı şair Məmmədhüseyn xan Müştağın xaincəsinə öldürülməsi münasibəti ilə yazdığı "Müsibətnamə" adlı mənzuməsində Vidadi dövrünün səciyyəvi lövhəsini yaratmış, xalq mənafeyini unudan mənsəb, şöhrət düşgünlərinə, nahaq qan tökənlərə lənət yağdırmışdır.




Xalq kədərindən gələn bədbinlik fəlsəfəsi M.P.Vaqiflə müşairədə və "Belə qalmaz" rədifli müsəddəsdə daha qabarıq əks olunmuşdur.

Yaradıcılığında vətənə, zəhmətkeşə məhəbbət güclüdür. Şairin "Dəli könül, gəl əylənmə qürbətdə", "Ey həmdəmim, səni qana qərq eylər", "Xəstə düşdüm, gələn yoxdur üstümə" kimi şeirlərində vətən həsrəti, qəriblik iztirabı səmimi və təsirlidir.

Vidadinin aşiqanə şeirləri də var. Lirikası yüksək bədii sənətkarlıq nümunəsidir. Heca vəznində yazdığı şeirlər xalq danışıq dilinə yaxın olub, orijinal bədii təsvir vasitələri ilə zəngindir.

Vidadi realist təsvirə meyl edən şairlərdən olmuşdur. Əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Bir çox küçə, mədəni-maarif müəssisəsinə onun adı verilmişdir.

1809-cu ildə Qazax rayonunun Birinci Şıxlı kəndində vəfat etmiş, burada ona qəbirüstü abidə qoyulmuşdur...

* * *

***Göründüyü kimi, M.V.Vidadi haqqında məlumat elə də zəngin deyildir. Bunu nəzərə alaraq ədəbiyyatşünaslarımız, elm və mədəniyyət xadimlərimiz böyük şairin ədəbi irsini araşdırmalı, onun həyat və yaradıcılığı ilə bağlı üzə yeni-yeni faktlar çıxarmalıdırlar...***

● **Y.ARAPLI**